# AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## “CƏRRAHİYYƏ”

fənni üzrə fəlsəfə doktoru imtahanının

# PROQRAMI

hazırlıq istiqaməti: **“TİBB ELMLƏRİ”**

proqramın istiqaməti: **3213.01 “Cərrahlıq”**

**B A K I - 2021**

# MƏZMUNU

Ümumi qaydalar:

**Bölmə I.** Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri

**Bölmə II.** Fəlsəfə doktoru imtahanının verilməsi prosesində yoxlanan bacarıqlar

**Bölmə III.** Fəlsəfə doktoru imtahanı proqramının məzmunu

Fəsil 1. Cərrahiyyəyə giriş

Fəsil 2. Ümumi nozologiya

Fəsil 3. Tipik patoloji proseslər

**Bölmə IV.** Tədris-metodik və informasiya təminatı

**Bölmə V.** Qiymətləndirmə meyarları

**Bölmə VI.** Fəlsəfə doktoru imtahanına hazırlaşmaq üçün nümunəvi sualların siyahısı

## ÜMUMİ QAYDALAR

Doktorantura ali təhsil bazasında elmi və elmi-pedaqoji kadr hazırlığını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir. Doktorantura təhsili ali təhsilin ən yüksək pilləsi olaraq ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalar vasitəsilə həyata keçirilir.

Cərrahiyyə fənni "Cərrahlıq" ixtisası 3213.01 – "Cərrahiyyə" istiqaməti proqramı üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlığının variativ hissəsinə aid fundamental fəndir.

"Cərrahiyyə" fənninin öyrənilməsi bakalavr və rezidentura hazırlığı üzrə əsas təhsil proqramının mənimsənilməsi prosesində doktorantların yiyələndiyi biliklərin məcmusuna əsaslanır.

"Cərrahiyyə" fənni üzrə fəlsəfə doktoru imtahanına daxil edilmiş sualların mənimsənilməsinin nəticələri doktorantların elmi-tədqiqat və peşəkar fəaliyyətləri üçün həlledici əhəmiyyətə malikdir.

"Cərrahiyyə" fənni üzrə fəlsəfə doktoru imtahanı tədris planında və təqvim tədris qrafikində müəyyən edilmiş müddətlərdə keçirilir.

"Cərrahiyyə" fənni üzrə fəlsəfə doktoru imtahanı proqramında fəlsəfə doktoru imtahanının hədəfləri və məqsədləri, ona olan tələblər müəyyən edilmiş, fəlsəfə doktoru imtahanının məzmunu və qiymətləndirmə meyarları təsvir edilmişdir.

"Cərrahiyyə" fənni fundamental elmi bazaya malik olan, elmi yaradıcılığın metodologiyası və müasir informasiya texnologiyaları barədə məlumatlı, müstəqil elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı bacaran və buna hazır olan şəxsiyyətin formalaşmasına imkan yaradır.

## I BÖLMƏ. ELMİ İXTİSAS ÜZRƏ FƏLSƏFƏ DOKTORU İMTAHANININ HƏDƏFLƏRİ VƏ MƏQSƏDLƏRİ

3213.01 - "Cərrahlıq" ixtisası üzrə doktoranturada təhsil alanların hazırlığının hədəfi tibb sahəsində ali ixtisaslı kadrlar hazırlanmasından, bu sahənin elmi və elmi-pedaqoji kadrlarla, həmçinin tibbi tədqiqatın müasir elmi metodlarına yiyələnmiş, yüksək ixtisaslı mütəxəssislərlə təmin etməkdən, doktorantın elmi ixtisas fənlərinin

öyrənilməsinin yekunlarına əsasən onun bacarıqlarının səviyyəsini aşkar etmək və qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın məzmunu –** xəstə orqanizmin həyat fəaliyyətinin nəzəri əsaslarının tədqiqi, eksperimental modelləşdirmə şəraitində və klinik müşahidələr əsasında patoloji proseslərin, xəstəliklərin, patoloji vəziyyətlərin yaranma səbəbləri və şəraiti, inkişaf mexanizmləri və nəticələrinin müəyyənləşdirilməsi, habelə adekvat müalicə üsullarının işlənib hazırlanması.

**Tədqiqatın obyekti** – müxtəlif xəstəlik və patoloji proseslər modelləşdirilmiş laborator heyvanlar və xəstə orqanizmlərdir. Patoloji proseslərin, xəstəliklərin əmələ gəlmə səbəblərinin və şəraitinin, inkişaf mexanizmlərinin eksperimental və klinik şəraitdə aparılan tədqiqatlar əsasında aydınlaşdırılması klinik tibbin inkişafına, yeni müalicə və profilaktika metodlarının işlənib hazırlanmasına zəmin yaradır.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının hədəfi** təhsil alanlar tərəfindən əsas ali təhsil proqramının – 3213.01 - "Cərrahlıq" istiqaməti üzrə doktoranturada elmi-pedaqoji kadrlar hazırlanması proqramının mənimsənilməsinin nəticələrinin Dövlət Ali Təhsil Standartlarının müvafiq tələblərinə nə dərəcədə uyğun olduğunu təyin etməkdir.

**Elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanının məqsədləri:**

– elmi ixtisas üzrə fəlsəfə doktoru imtahanına hazırlıq və fəlsəfə doktoru imtahanının verilməsi prosesində 3213.01 - "Cərrahliq" hazırlıq istiqaməti üzrə Dövlət Ali Təhsıl Standartlarının tələbləri (ali ixtisaslı kadrların hazırlıq səviyyəsi) və təhsil alanların ali təhsil proqramının - doktoranturada elmi-pedaqoji kadrların hazırlanması proqramının mənimsənilməsi prosesində əldə etdikləri faktiki bilik, bacarıq və vərdişlər arasında uyğunluğu təyin etmək;

– doktorantın patoloji proseslərin və cərrahi xəstəliklərin inkişaf mexanizminin, gedişinin və nəticəsinin ümumi qanunauyğunluqları, ayrı-ayrı xəstəliklərin terapiya və profilaktikası prinsipləri haqqında elmi bilikləri nə dərəcədə mənimsədiyini aşkar etmək;

– doktorantın ümumi nozologiyaya aid olan məsələləri, tipik patoloji proseslərin etiologiyasını, patogenezini, ayrı-ayrı orqan və sistemlərin

patologiyasının əsas formalarını, patoloji proseslərin və bir sıra mühüm xəstəliklərin profilaktikası və cərrahi müalicəsi prinsiplərinin əsaslandırılması bacarığını qiymətləndirmək;

– doktorantın tədqiqat metodlarını müstəqil öyrənmək, xəstəliklərin modelinin yaradılması və eksperimental terapiyası məsələlərini, o cümlədən müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, əldə olunan bilikləri klinikada tətbiq etməyi bacarmaq; klinik təfəkkürün metodik və metodoloji əsaslarını hazırlamaq qabiliyyətini qiymətləndirmək.

## II BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANININ VERİLMƏSİ PROSESİNDƏ YOXLANAN BACARIQLAR

Doktorantura proqramının ixtisas fənni üzrə fəlsəfə doktoru imtahanı aşağıda sadalanan **bacarıqların** üzə çıxarılmasına yönəldilmişdir:

**Universal bacarıqlar:**

– müasir elmi nailiyyətləri təhlil etmək və qiymətləndirmək, tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlərarası sahələrdə yeni ideyalar irəli sürmək qabiliyyəti;

**Ümumi peşəkar bacarıqlar**:

– cərrahiyyə sahəsində müasir tədqiqat metodlarından və informasiya texnologiyalarından istifadə etməklə müstəqil elmi-tədqiqat fəaliyyətini həyata keçirmək qabiliyyəti.

**Peşəkar bacarıqlar:**

– cərrahiyyə sahəsində nəzəri və eksperimental tədqiqatların metodologiyasının mənimsənilməsi;

– elmi tədqiqatlarda cərrahiyənin nəzəri əsaslarından və praktiki vərdişlərindən istifadə etmək qabiliyyəti.

**Fəlsəfə doktoru imtahanında doktorant aşağıda sadalanan bilik, bacarıq və vərdişlərini nümayiş etdirməlidir:**

**biliklər:**

- ümumi nozologiya haqqında məlumat: səbəb və şərait amillərinin, həmçinin orqanizmin reaktivliyinin xəstəliklərin əmələ gəlməsində, inkişafında və nəticəsində rolu;

-tipik patoloji proseslərin səbəbləri və inkişaf mexanizmləri, əlamətləri və müxtəlif xəstəliklərin inkişafı zamanı orqanizmə təsiri mexanizmi;

-orqan və sistemlərin tipik pozulmalarının səbəbləri, inkişaf mexanizmi və əsas əlamətləri;

- insanda tez-tez rast gəlinən cərrahi xəstəliklərin etiologiyası, patogenezi, əlamətləri və nəticələri, onların etioloji və patogenetik müalicə prinsipləri;

- patoloji proseslərin öyrənilməsində eksperimental metodun (heyvanlarda xəstəliklərin və patoloji proseslərin modelləşdirilməsi) əhəmiyyəti; onun imkanları, məhdudiyyətləri və perspektivləri;

- tibbin və səhiyyənin inkişafında cərrahiyənin əhəmiyyəti, onun digər tibbi-bioloji və tibbi fənlərlə əlaqəsi.

**bacarıqlar:**

-klinik-laborator, eksperimental və digər müayinələrin cərrahi baxıdan təhlilini aparmaq;

-əldə olunan bilikləri elmi-tədqiqat fəaliyyətində tətbiq etmək;

-heyvanlar üzərində eksperimenti planlaşdırmaq və aparmaq (müvafiq qaydalara riayət etməklə), təcrübənin nəticələrini işləmək və təhlil etmək, patologiyanın klinik formalarını öyrənmək üçün eksperimentin əhəmiyyətini düzgün qiymətləndirmək;

-xəstəliklərin inişafında, gedişində və nəticəsində tipik patoloji proseslərin rolunu qiymətləndirmək;

-qanın müayinəsini aparmaq və hemoqrama görə qan sistemi patologiyasının olmasını və onun tipik formalarını müəyyən etmək;

-sidiyin müayinəsinə və klirens-testlərə görə böyrəyin tipik pozulmalarının xüsusiyyətlərini müəyyən etmək;

-sarılıqların müxtəlif növlərini differensiasiya etmək;

-mədə və bağırsaq şirələrinin müayinəsinə görə mədə və bağırsağın sekretor funksiyalarının tipik pozulmalarını müəyyən etmək;

-öyrənilən geniş yayılmış xəstəliklərin patogenetik terapiya prinsiplərini əsaslandırmaq.

**vərdişlər:**

- müxtəlif ədəbiyyat mənbələri ilə işləmək, müvafiq problemlər üzrə informasiya axatarışı aparmaq;

- tədqiqat və praktiki xarakterli məsələlərin həlli zamanı, o cümlədən fənlər-arası sahələrdə yaranan metodoloji problemləri təhlil etmək;

- müasir elmi nailiyyətləri, o cümlədən fənlərarası sahələrdə tədqiqat və praktiki xarakterli məsələlərin həlli üzrə fəaliyyətin nəticələrini tənqidi mövqedən təhlil etmək və qiymətləndirmək;

- müstəqil tədqiqat aparmaq qabiliyyəti;

- şifahi və yazılı nitqini məntiqi cəhətdən düzgün, əsaslandırılmış və aydın şəkildə qurmaq; fənlərarası qarşılıqlı təsiri həyata keçirmək, tədqiqat məsələlərinin həlli üçün perspektivli nəzəri-metodoloji və elmi-praktik yanaşmaları inkişaf etdirmək qabiliyyəti;

-tədqiqat işinin müxtəlif metodları;

-statistik göstəricilərin qiymətləndirilməsi metodikası, xronoloji təhlili metodları.

## III BÖLMƏ. FƏLSƏFƏ DOKTORU İMTAHANI PROQRAMININ MƏZMUNU

## FƏSİL 1. CƏRRAHİYYƏYƏ GİRİŞ

Cərrahlıq fundamental elm və tədris fənni kimi.Cərrahiyənin müasir tibb elmində yeri, vəzifələri və metodları. Cərrahiyənin inkişafında eksperimentin əhəmiyyəti. Tibbi-bioloji eksperimentlərin aparılmasının ümumi prinsipləri və onların nəticələrinin təhlili. Modelləşmə, onun növləri, imkanları və

məhdudiyyətləri. Patoloji proseslərin müxtəlif formalarının və mühafizə-uyğunlaşma reaksiyalarının heyvanlar üzərində modelləşdirilməsi, yeni cərrahi metodların tətbiqi; müqayisəli təkamül metodunun əhəmiyyəti. Heyvanlar üzərində eksperimentlərin aparılmasının mənəvi-etik aspektləri. Xəstəliyin öyrənilməsində və yeni müalicə üsullarının işlənib hazırlanmasında eksperimental cərrahiyənin əhəmiyyətli rolu.

# FƏSİL 2. ÜMUMİ NOZOLOGİYA

Xəstəlik haqqında təlim. Xəstəliyin mənşəyinin qnoseoloji (fəlsəfi) və tibbi aspektləri. Xəstəlik, zədələnmə və mühafizə-uyğunlaşma proseslərinin dialektik vəhdəti kimi. “Norma", “sağlamlıq” və “xəstəlik” haqqında anlayış. Xəstəliklərin təsnifatının prinsipləri. Xəstəliyin mərhələləri. Xəstəlikönü vəziyyət haqqında anlayış və xəstəliyin nəticələri. Sanogenez. Tam və natamam sağalma, xəstəliyin xronik hala keçməsi, residivləri və ağırlaşmaları. Patoloji reaksiya, patoloji proses, patoloji vəziyyət, tipik patoloji proseslər. Terminal vəziyyət, onun mərhələləri. Ölüm. Reanimasiyanın patofizioloji əsasları və sosial-deontoloji aspektləri.

## 2.1. Ümumi etiologiya və ümumi patogenez

Ümumi etiologiya. Səbəb və şərait amillərinin xəstəliyin inkişafında rolu, onların dialektik qarşılıqlı münasibətləri. Xəstəliyin yaranma səbəbləri (daxili və xarici səbəblər). Ümumi etiologiyanın ekoloji aspektləri. Xəstəliyin müalicə və profilaktikasında etiotrop prinsip. Ümumi patogenez. Zədələnmələr patogenezin başlanğıc mərhələsi kimi. Zədələnmənin səviyyələri: submolekulyar, molekulyar, hüceyrəaltı, hüceyrə, toxuma, orqan, bütün orqanizm səviyyəsində. Xəstəliyin patogenezində funksional və struktur dəyişikliklərin qarşılıqlı əlaqəsi və vəhdəti. Patogenezdə səbəb-nəticə əlaqələri, birincili və ikincili zədələnmələr. Zədələnmənin lokalizasiyası və yayılması. Zədələnmənin yerli və ümumi təzahürləri. Patogenezdə əsas mərhələ və qüsurlu dövran. Orqanizmin müdafiə və kompensator reaksiyaları.

## 2.2. Xarici və daxili amillərin xəstəliklərin əmələ gəlməsində rolu

Fiziki, kimyəvi və bioloji xəstəliktörədən amillər. Uzunmüddətli sıxılma sindromu haqqında anlayış. Onun səbəbləri və inkişaf mexanizmi. Hiperbarik oksigenasiya və onun tibbdə tətbiqi. Müasir insanın cərrahi patologiyasında elmi-texniki tərəqqinin, urbanizasiyanın və sənayenin inkişafının rolu. Xəstəliyin yeni etioloji amilləri. Emosional gərginliyin əhəmiyyəti. Ətraf mühitin çirklənməsinin təsiri.

## 2.3. Orqanizmin reaktivliyinin patologiyada rolu

Orqanizmin reaktivliyi, onun növləri. Reaktivlik və rezistentlik. Reaktivliyi müəyyən edən amillər. İmmunoloji reaktivlik və qeyri-spesifik rezistentlik. Xarici və daxili mühit amillərinin orqanizmin reaktivliyinə təsiri. Sosial amillərin orqanizmin reaktivliyinə təsiri. Patoloji reaktivlik. Fərdi və qrup reaktivliyinin məqsədyönlü dəyişdirilməsinin xəstəliklərin müalicə və profilaktikasında rolu.

# IV BÖLMƏ. Tədris-metodik və informasiya təminatı

Ümumi cərrahiyə

1. Milli və dünya cərrahiyəsi tarixinin əsas mərhələləri. Milli cərrahiyənin baniləri və onların cərrahiyənin inkişafında rolları.Cərrahiyə üzrə əsas milli və xarici dövrü nəşrlər. Azərbaycanda cərrahiyə yardımının təşkili.

2. Cərrahiyə şöbəsinin, əməliyyat blokunun və əməliyyat sonrası şöbənin işinin təşkili.

3. Azərbaycanda qan köçürmənin təşkilinin prinsipləri.

4. Azərbaycanın səhiyyə sistemində onkoloji yardımın təşkili prinsipləri.

5. Yanıqlar zamanı ilk və sonrakı yardımın təşkili prinsipləri.

6. Aseptika və antiseptika haqqında anlayış. Tikiş materialının emalı üsulları, cərrahın əllərinin hazırlanması. Alətlərin , əməliyyat paltarlarının və sarğı materiallarının sterilizasiya metodları. Antiseptikanın bioloji metodları.

7. Antibiotiklər. Təsnifat. İstifadəsinə qöstərişlər və əks qöstərişlər.Onların istifadəsi zamanı yaranan fəsadlar, profilaktika və müalicə metodları.

İrinli cərrahiyyə üzrə ümumi suallar.

8.İrinli xəstəliklərin təsnifatı, onların törədiciləri. Yoluxma və yayılma yolları. Orqanizmin ümumi və yerli reaksiyası. Üz və boyunda iltihab xəstəliklərinin xüsusiyyətləri. İrinli cərrahiyyədə proteolitik fermentlərin istifadəsi.

9. Müalicə prinsipləri: antibakterial, immun, dezintoksikasyon, təşviqedici, ümumi möhkəmləndirici terapiya, yerli müalicə. Şəkər xəstəliyindən əziyyət çəkənlərdə irinli infeksiyanın gedişinin xüsusiyyətləri.

10. Dəri və dərialtı toxumanın irinli xəstəlikləri. Furunkul, karbunkul, hidradenit. Etiologiya, klinika.

11. Limfatik damarların və birləşmələrinin irinli xəstəlikləri - limfangit, limfanqoit,

limfadenit

12.Sümüklərin irinli xəstəlikləri. Etiologiya, patogenez. Təsnifat. Osteomielitin klinik əlamətləri.Cərrahi müalicə prinsipləri.

13. Oynaq və sinovial ciblərin irinli xəstəlikləri – irinli artrit, irinli bursit.

14. Yumşaq toxumaların irinli xəstəlikləri. Fleqmona və abseslər. Anlayışların müəyyən edilməsi. Fərqlər.

15. Əl barmaqlarının irinli xəstəlikləri – panarisiyum, irinli tendovaqinit, əlin fleqmonası. Etiologiya, patogenez, klinik şəkil. Müalicə.

16. Cərrahi sepsis.Anlayışın müəyyən edilməsi. İnkişaf etməsinin səbəbləri. Patogenez. Törədiciləri. Diaqnostika prinsipləri, xəstəliyin ağırlıq dərəcəsi və proqnoz səviyyəsinin qiymətləndirici şkalaları.Müalicə.

17. Spesifik cərrahi infeksiyalar. Anaerob infeksiya. Təsnifat, etiologiya, patogenez, diaqnostika, müalicə prinsipləri, profilaktika.

18. Erysipelas. Etiyoloji, təsnifatı, klinikası, diaqnostikası, müalicəsi,ağırlaşmalar.

19. Tetanus. Törədicisi. Patogenez və patoloji anatomiya. Klinikası, diaqnostikası, müalicəsi, profilaktikası.

20. Aktinomikoz. Lokalizasiya, tezlik, klinik xüsusiyyətlər, diaqnostika, müalicə

21. Yanıqlar. Yanıq xəstəliyinin təsnifatı, klinik fazaları və mərhələləri, patogenezi, müasir müalicə prinsipləri.

22.Donmalar. Təsnifatı, klinik gedişatı, müalicəsi.

23. Elektrozədə. Elektrotravma zamanı reanimasiya xüsusiyyətləri. Ağırlaşmalar.Orqanizmin əsas funksiyaları və sistemlərində dəyişikliklər. Elektrotravmaya ümumi reaksiya.

24Qanaxmalar. Müxtəlif növ qanaxmaların təsnifatı və onların qarşısının alınması.Qan itkisinin müəyyənləşdirilməsi metodları. Qan əvəzedicilər.

25Yaralar. Yaraların təsnifatı. Cərrahi infeksiya nəzəriyyəsi. Yaraların mikroflorası. Yaraların gedişatı və sağalması. Yaraların müalicəsi.

26. Yaraların ilkin cərrahi işlənməsi, göstərişlər və işlənmə texnikası. İnfeksiyalı yaraların müalicəsinin müasir prinsipləri. İlkin və təxirə salınmış tikişlər. Göstərişlər. Dəri plastikası. Mikrocərrahiyə metodunun dəri-əzələ köçürülməsində əhəmiyyəti. Milli cərrahların mikrocərrahiyə problemlərinin işlənilib hazırlanmasında rolu.

27. Xəstələrin əməliyyatqabağı hazırlanmasının və əməliyyatsonrası aparılmasının əsas prinsipləri.

28. Əməliyyat risklərinin kriteriyaları. Urgent və planlı cərrahiyyədə əməliyyatqabağı hazırlığın əsasları.

29. Təcili və planlı cərrahiyədə anestezioloji-reanimasyon tədbirlər. Xəstələrin vəziyyətinin ağırlığının qiymətləndirilməsi. Mərkəzi damarlarının kateterləşdirilməsi.

30. Xəstələrin əməliyyatsonrası aparılması. Enteral, parenteral və enteral zondla qidalanma. Parenteral qidalanma zamanı xəstələrin müayinə prinsipləri.

31. Cərrahi praktikada intensiv terapiyanın ümumi prinsipləri. Şok- anlayışının müəyyən edilməsi, təsnifatı, mərhələləri. Travmatik şok. Hemorragik şok. Septik şok. Anafilaktik şok. Şokun müxtəlif növlərinin müalicə prinsipləri.Şokun inkişafının profilaktikası. Əməliyyatsonrası ağırlaşmaların profilaktikası və müalicəsi.

32. Bayılma, kollaps, şok. Patogenez, klinika, differensial diaqnostika, müalicə.

33. Reanimasiyanın əsasları. Ağciyərin süni ventilyasiyası,idarə olunan tənəffüs. Ürək dayanması zamanı ilk yardım prinsipləri.

XÜSUSİ CƏRRAHİYYƏ

34. Boyun haqqında anatomik məlumat. İnkişaf qüsuralrı. Əyri boyun. Anlayışın tərifi.Təsnifat, etiologiya, müalicə.

35. Boyunun orta və yan kistası , fistulası . Anlayışın tərifi, klinika, diaqnostika, müalicə. Boyun orqanlarının zədələnməsi. Klinika, diaqnostika, ilkin yardım,

müalicə. Əməliyyatdan sonrakı müalicənin xüsusiyyətləri.Boyunun absess və fleqmonları. Etioligiya, klinika, diaqnostika, ağırlaşmalar, müalicə.

36. Qalxanvari vəzin xəstəlikləri. Təsnifat. Xəstələrin müayinə metodları.

37. Qalxanvari vəzin xəstəlikləri ilə xəstələrin əməlliyat qabağı hazırlanması və əməliyyat sonrası idarə olunması .

38. Endemik və sporadik zob. Zob endemiyasının tərifi, etiologiyası, patogenezi və əlamətləri. Qalxanvari vəzin böyümə dərəcəsi və forması üzrə təsnifat.Klinika, diaqnostika. Müalicə. Əməliyyata göstərişlər. Profilaktika.

39. Tireotoksik zob.Anlayışın tərifi, patogenez. Ağırlıq dərəcəsi və inkişaf mərhələsinə görə təsnifatı. Tireotoksik zobun diffuz və düyünlü formalarının klinikası, diaqnostikası, müalicəsi . Əməliyyata göstərişlər və əks göstərişlər. Tireotoksikoz mərhələsindən asılı olaraq əməliyyat qabağı hazırlıq, əməliyyatın üsulları.

40. Qalxanvari vəzdə əməliyyatların ağırlaşmaları. Tireotoksikoz xəstələri üzrərində əməliyyatdan sonra tireotoksik krizin və kəskin ürək-damar çatışmamazlığının profilaktika və müalicəsi.

41. Tireoditlər və strumitlər. Anlayışın tərifi. Xaşimoto tireoditi. Etiologiya, patogenez,klinika, diaqnostika. Medikamentoz və cərrahi müalicəyə göstərişlər. Ridel Tireoditi. Klinika, diaqnostika, differensial diaqnoz.Cərrahi müalicə. Yaxın və uzaq nəticələr. Xronik spesifik tireoditlər (aktinomikoz, vərəm, sifilis).

42. Qalxanvari vəzin xərçəngi. Kliniki və histoloji təsnifatı. Klinika, diaqnostika, müalicə. Cərrahi müdaxilənin həcmi. Kombinə edilmiş müalicə- şüa, kimyavi-terapevtik, hormonal terapiya, radioaktiv yodla müalicə.Yaxın və uzaq nəticələr. Proqnoz. Profilaktika.

43. Paraqalxanvari vəzlərin şişləri. Klinika, diaqnostika, müalicə. Hipoparatireoz, tetaniya. Patogenez, klinika, diaqnostika, proqnoz, müalicə. Qalxanvari vəz üzərində əməliyyat zamanı paratireoid çatışmazlığının profilaktika yolları.

44. Süd vəzinin xəstəlikləri. Təsnifat, xəstələrin müayinə metodları.Süd vəzinin xəstəliklərinin operativ müalicə prinsipləri.

45. Kəskin irinli mastit. Klinika, diaqnostika, müalicə.

46. Dishormonal xəstəliklər. Mastopatiya. Ginekomastiya. Etiopatogenez.Təsnifat. Klinika, diaqnostika, differensial diaqnoz.Konservativmüalicə. Cərrahi müalicə. Profilaktika.

47. Xoşxassəli şişlər. Klinika, diaqnostika, differensial diaqnoz,müalicə.

48. Süd vəzi xərçəngi. Patoloji anatomiyası. Klinik formaları.Süd vəzi xərçənginin beynəlxalq təsnifatı və mərhələlər üzrə təsnifatı. Xəstəliyin erkən diaqnostikası

üsulları, operativ müalicə prinsipləri.Əməliyatönü və əməliyyat sonrası süa terapiyası, ovariektomiya, hormonal terapiya və kimyavi terapiyaya göstərişlər. Müalicənin nəticələri.Süd vəzi xərçənginin profilaktikası.

49. Traxeyanın və bronxların xəstəlikləri. Təsnifatı. İnkişaf qüsurları, diaqnoz və müalicə. Xoş xassəli və bədxassəli şişlər.Diaqnostika, müalicə. Traxeyanın travmatik zədələnmələri, diaqnostika, müalicə.Traxeyanın çapıqlı stenozları. Səbəbləri. Klinika, diaqnostika, müasir müalicə metodları, erkən və gec ağırlaşmalar.

50. Bronxların yad cismləri. Klinika, diaqnostika, ağırlaşmalar, müalicə.Traxeya və bronxlar üzərində rekonstruktiv əməliyyatlar: traxeoplastika, texnikin göstəriciləri (T-formalı boru, "parçalanmış zond").

51. Ağciyər və plevranın xəstəlikləri. Ağciyər xəstəliklərinin müasir müayinə metodları, onlara göstərişlər. Anadangəlmə ağciyər xəstəlikləri. Təsnifat.Hipoplaziyalar, polikistoz, ağciyər kisti. Damar anomaliyaları. Diaqnostika və differensial diaqnostika. Cərrahi müalicə prinsipləri.

52. Pnevmotoraks. Büllöz ağciyər emfizeması. Səbəblər. Total və məhdud pnevmotoraks. Spontan, açıq, qapaqlı və gərgin pnevmotoraks.Onların inkişafı və klinik gedişinin xüsusiyyətləri. Diaqnostika. İlk yardım, müalicə. Hemotoraks - etiologiyası, təsnifatı, ağırlaşmalar, müalicə.

53.Ağciyərlərin kəskin və xroniki irinli xəstəlikləri.Tərifi .Təsnifat. Xəstələrin müayinəsi üsulları.

54. Ağciyərlərin irinli xəstəlikləri. Patogenez. Klinika, diaqnostika, differensial diaqnostika. Müalicə üsulları. Əməliyyata göstərişlər və cərrahi müdaxilənin növləri. Ağırlaşmalar.

55. Bronxoektatik xəstəlik. Anlayışın tərifi. Xəstəliyin forma və prosesin inkişaf mərhələri üzrə təsnifatı. Etiologiya, patogenez, klinika.Diaqnostika, diferensial diaqnostika. Cərrahi müalicə üçün göstərişlər.Əməliyyat qabağı hazırlıq üsulları. Əməliyyatın növləri, əməliyyatdan sonrakı müddətin idarə edilməsi.

56. Kəskin irinli plevrit və plevranın xroniki empiyeması. Anlayışın tərifi.Təsnifat. Etiopatogenez. Klinika, diaqnostika, konservativ və cərrahi müalicə.

57. Ağciyər xərçəngi .Etiologiya, risk qrupları. Patoloji anatomiya. Metastazlaşma qanunauyğunluqları. Klinik anatomik təsnifat. Böyümənin təbiətindən və şişinin lokalizasiyasından asılı olaraq mərkəzi və periferik xərçəngin klinik mənzərəsi.Cərrahi müalicəyə göstərişlər, əməliyatın mümkünsüzlüyü əlamətləri. Kombinə edilmiş müalicənin prinsipləri.

58. Xoş xassəli ağciyər şişləri. Təsnifat. Mərkəzi və periferik xoş xassəli şişlər (klinik şəkil).Diaqnostika və differensial diaqnostika üsulları. Cərrahi müalicə prinsipləri, endocərrahi müdaxilələr.Müalicə metodunun seçilməsi, nəticələr.

59. Ağciyərin exinokokkozu. Klinika, diaqnostika. Birləşmiş ekinokokkoz. Seroloji metodların rolu. Cərrahi müalicə. Profilaktika.

60. Ağciyər qanaxması. Səbəbləri, klinikası, diaqnostikası, xəstələrin müalicəsinin müasir taktikası

61.Divararalığının şişləri və kistləri.Təsnifat, klinika, diaqnostika və differensial diaqnostika. Xüsusi araşdırma üsulları. Əməliyyat üçün göstərişlər.Mediastinit. Ön və arxa mediastinitin etiologiyası, klinikası.Diaqnostika, müalicə.

62.Döş qəfəsinin qapalı və açıq travmaları (bıçaq və güllə). Klinika, diaqnostika. Qarışıq yaralanmalar.Döş qəfəsinin sıxılması,silkələnməsi.Döş qəfəsinin daxilə nüfuz edən və daxilə nüfuz etməyən yaralanmaları, ağırlaşmalar.Cərrahi müalicəyə göstərişlər, adi və video yardımlı torakoskopik əməliyyatlar.Kombinə olunmuş xəsarətlər. Əməliyyatdan sonraki dövrdə xəstələrin aparılması.

63. Döş limfatik kanalın patologiyası. Klinika, diaqnostika, ağırlaşmalar, xiloreya sindromunun müalicəsi.

64. Diafraqmanın "zəif" yerləri. Diafragmal yırtıqlar. Təsnifatı.Diafraqmanın travmatik və qeyri-travmatik yırtıqlarıı. Klinika, diaqnostika və müalicəsi.Əməliyyata göstərişlər və cərrahi müdaxilənin növləri.

65. Diafraqmanın qida borusu dəliyinin yırtığı. Təsnifatı, ağırlaşmaları.Sürüşən yırtığların konservativ müalicəsi. Cərrahi müalicəyə göstərişlər.Diafraqmanın relaksasiyası. Klinika, diaqnostika. Əməliyyata göstərişlər, relaksasiya zamanı diafragmanın plastikası üsulları.

66. Ürək xəstəliklərinin klinik fiziologiyası və patofiziologiyasının əsasları.Təsnifat. Ümumi və xüsusi araşdırma üsulları. Ürək cərrahiyyəsində fövqəladə vəziyyətlər və onların terapiyası. Qan dövranı çatışmamazlığı və müalicəsi.

67.Ürəyin işemik xəstəliyi. Klinika, diaqnostika, cərrahi müalicə üsulları (koronar arteriya şuntlama əməliyyatı), göstərişlər.Yaxın və uzaq nəticələr.Postinfarkt ürək anevrizması. Postinfarkt ürək anevrizmalarının təsnifatı,tezliyi. Klinikası, diaqnostikası. Əməliyyata göstərişilər və əks-göstərişlər.Cərrahi müalicə prinsipləri.

68. Ürək qüsurları: Anadangəlmə ürək qüsurları. Təsnifatı. Klinika. Diaqnostika və differensial diaqnostika. Əməliyyata göstərişlər. Cərrahi müalicə üsulları. Süni qan dövranı aparatının istifadə edilməsi, aparatların konstruksiya prinsipləri. Əməliyyatların nəticələri.Qazanılan ürək qüsurları. Etiologiya.Təsnifat, ağırlıq dərəcələri. Klinika, diaqnostika. Əməliyyata göstərişlər və əks-göstərişlər. Əməliyyat metodları.

69. Qapalı əməliyyat üsulları, açıq üsullar, komissurotomiya və ürək klapanlarının protezləşməsi, klapanlar üzərində plastik cərrahiyyə. Süni ürək klapanları.Kardiocərrahiyyə xəstələrinin reabilitasiyası.

70. Perikardit. Perikarditin müxtəlif formalarının təsnifatı, etiologiyası, klinikası, diaqnostikası, müalicəsi.

71. Ürək yaralanması. Klinika, diaqnostika, cərrahi müalicə və əməliyyatdan sonrakı müalicə prinsipləri.

72. Damar xəstəlikləri olan xəstələrin müasir müayinə üsulları.

73. Arteriyaların xəstəlikləri.Təsnifatı.Həqiqi və yalançı qan damarı anevrizması. Anadangəlmə və travmatik arterial anevrizmalar.Patogenez. Klinika, diaqnostika üsulları. Cərrahi müalicəyə göstərişlər.Cərrahi əməliyyatın növləri. Döş aortasının anevrizması.Təsnifatı, diaqnostikası, müalicəsi.Anevrizmanın laylanması zamanı təcili əməliyyatlar.

74. Arteriyaların aterosklerotik xəstəlikləri Anlayışın tərifi. Etiologiya, patogenez. Patoloji anatomiya.

75. Obliterasiyaedici endoarteritin və aterosklerozun klinik formaları. Xəstəliyin müxtəlif formalarının kliniki əlamətləri. Diaqnostika; reovasoqrafiya, angioqrafiya, doppleroqra-fiya.Ultrasəs angioskanlaşdırmanın xəstəliklərinin diaqnostikasında əhəmiyyəti.Diferensial diaqnostika.Konservativ müalicə. Operativ müalicəyə göstərişilər.Əməliyyatın növləri. Kateter dilatasiyası.Xəstəliyin profilaktikası.Endovaskulyar müdaxilələr.

76. Qeyri-spesifik aortoarteriit. Klinika və diaqnostikası.Müalicə prinsipləri və onların nəticələri.

77. Obliterasiyaedici tromboanginit. Etiologiya, patogenez. Patoloji anatomiya.Klinika. Xəstəliyin mərhələləri. Diaqnostika və differensial diaqnostika.Konservativ müalicənin prinsipləri.

78. Diabetik mikro və makroangiopatiya. Klinika, diaqnostika, müalicə. Trofik xoranın və qangrenanın müalicəsi

79. Arterial tromboz və emboliya. Tromboz və emboliya arasındakı fərq. Etiologiya.Tromb əmələgəlməsinə yol açan faktorlar. Embologen xəstəliklər.Kəskin tromboz və emboliyanın klinikası. Ətrafların işemiya dərəcəsi. Diaqnostika üsulları:aortoarterioqrafiya, doppleroqrafiya, ultrasəs angioskanlaşdırma.Kəskin tromboz və emboliyanın konservativ və cərrahi müalicə üsulları.Post-işemik sindrom və onun profilaktikası.

80. Aşağı ətraf damarlarının xəstəlikləri. Təsnifatı.İnkişaf qüsurları. Klinika, diaqnostika və müalicəsi. Aşağı ətrafların varisoz xəstəliyi. Etiologiya, patogenez,

patoloji anatomiya. Xəstəliyin mərhələsindən asılı olaraq kliniki əlamətləri. Diaqnostika.Ətrafların dərin venalarının keçiricilik qabiliyyətinin müəyyənləşdirməsi üsulları, səthi və kommunikant venaların klapan aparatının vəziyyətinin qiymətləndirilməsi (funksional sınaqlar, kontrastlı flebografiya, ultrasəs angioskanlaşdırma, flebostsintigrafiya).

81.Aşağı ətrafların varikoz xəstəliyin müalicəsi: skleroterapiya, konservativ və cərrahi müalicə.Əməliyyata göstərişlər və əks-göstərişlər. Əməliyyatın növləri və kommunikativ damarların sarğı üsulları. Kommunikativ damarların endoskopik diseksiyası.Əməliyyatdan sonrakı aparılması. Aşağı ətrafların varikoz xəstəliyinin ağırlaşmaları.Klinika, diaqnostika və müalicəsi.

82. Aşağı boş venanın kəskin trombozu. Təsnifatı, lokalizasiyası.Venöz trombozun etiologiyası və patogenezi. Kəskin venoz trombozlarının klinikası.Diaqnostika.Konservativ və cərrahi müalicə.Əməliyaata göstərişlər və əks-göstərişlər.Əməliyyat üsulları: trombektomiya, damar sarğısı, kava-filtrin inplantasiyası.

83. Ağciyər arteriyasının tromboemboliyası. İnkişafının səbəbləri.Klinikası və diaqnostikası.Müayinə üsulları:ağciyərin rentgenoqrafiyası, radioizotop skanlaşdırma, ürəyin sağ yarısının angiopulmonografiyası, retrograd ilikavoqrafiya.Müalicə. Embolektomiya üçün göstərişlər. Profilaktika.

84. Aşağı ətrafalrın posttromboflebitik xəstəliyi. Patogenez. Təsnifat. Xəstəliyin müxtəlif formalarının klinikası. Xüsusi diaqnostika üsulları.Konservativ müalicə. Əməliyyata göstərişlər və cərrahi müdaxilələrin növləri

85. Limfatik sistemin çatışmazlığı. Limfostazın təsnifatı. Klinika, diaqnostika və cərrahi müalicəsi. Mikrocərrahi üsullarla limfovenoz anastomozların qoyulması. Fil xəstəliyi.

86. Qida borusu xəstəlikləri.Təsnifatı.Anadangəlmə inkişaf qüsurları. Təsnifatı.Diaqnostikası və müalicəsi.

87. Qida borusunun yad cismləri. Klinika, diaqnostika və müalicəsi. Qida borusunun perforasiyası.Klinika, diaqnostika və müalicəsi. Ağırlaşmalar.

88. Kardiyanın axalaziyası. Təsnifatı, klinika, diaqnostika, differensial diaqnoz. Müalicə prinsipləri. Cərrahi müalicəyə göstərişlər.Əməliyyatın prinsipləri.

89. Gastroezofageal reflüks xəstəliyi. Klinika, diaqnostika (rentqenoqrafiya, endoskopiya, elektromiyoqrafiya və s.).Konservativ və cərrahi müalicə prinsipləri. Endocərrahi müdaxilələr.

90. Kimyəvi yanıqlar və qida borusunun çapıq daralması.Patogenez. Kəskin dövrün klinikası. Kəskin dövrdə ilk yardım və müalicə prinsipləri. Erkən və gec bujlama.

91.Qida borusunun çapıq daralmasının klinikası. Cərrahi müalicə. Qida borusunun plastik dəyişdirilməsi növləri. Bir mərhələləli və çox mərhələli əməliyyatlar.Cərrahi müalicənin nəticələri.

92. Qida borusunun xoşxassəli şişləri. Klinika, diaqnostika. Cərrahi müalicə üsulları.

93. Qida borusu xərçəngi.Tezliyi. Patoloji anatomiyası. Klinika və diaqnostikası.Cərrahi müalicəyə göstərişlər və əks-qöstərişlər. Əməliyyatönü hazırlıq.Əməliyyatdan sonrakı ağırlaşmalar. Kombinə edilmiş müalicə (kimyavi terapiya, süa terapiyası). Cərrahi və kombinə edilmiş müalicənin nəticələri. Qida borusu cərrahiyəsində lazer texnologiyaları.

94. Mədə xəstəliklərinin təsnifatı. Mədə xəstəlikləri olan xəstələrin müayinə üsulları.

95. Mədə xorası. Mədə xorasının etiologiyası və patogenezinin xüsusiyyətləri.Təsnifatı. Əməliyyata göstərişlər və cərrahi əməliyyatın növləri. Onikibarmaq bağırsağın xorası. Etiologiyası və patogenezi.Patoloji-anatomik dəyişikliklər. Klinika və diaqnostika. Xroniki onikibarmaq bağırsaq xorası zamanı əməliyyata göstərişlər.

97. Mədə və onikibarmq bağırsağının qanaxan xorası. Patoloji anatomiyası.Homeostazın pozulmasının patogenezi. Mədə-bağırsaq qanaxmasının klinikası və diaqnostikası. Diferensial diaqnostika.Qanaxan xoraların konservativ və cərrahi müalicəsi. Qanaxmanın dayandırılması üçün endoskopik üsullar.

98. Perforasiya olunmuş mədə və onikibarmaq bağırsağı xorası.Təsnifatı, patoloji anatomiyası. Klinikası.Diaqnostika və differensial diaqnostikası. Müalicə taktikası.

99. Piloduodenal stenoz. Patogenezi. Klinika və diaqnostikası. Xəstəliyin mərhələləri, homeostazın pozulmasının xüsusiyyətləri. Əməliyyatönü hazırlığın xüsusiyyətləri.Əməliyyata n göstərişilər və cərrahi əməliyyatın növləri.

100. Xoraların penetrasiyası. Patogenezi. Kliniki şəkli.Diaqnostika üsulları.Cərrahi müalicəyə göstərişlər və əməliyyatın növləri. Xoranın maliqnizasiyası. Maliqnizasiyanın inkişaf nəzəriyyələri. Xoranın lokallaşdırılmasından asılı olaraq malignizasiyanın tezliyi. Malignizasiyanın erkən diaqnozu. Simptomatik xoralar: hormonal və dərman xoraları, Zollinger-Ellison sindromu. Etiologiya və patogenezi. Klinik və diaqnostikası.Cərrahiyyə müalicəsinin xüsusiyyətləri.

102. Mellory-Vays sindromu. Xəstəliyin inkişaf səbəbləri. Klinika və diaqnostika, diferensial diaqnostika. Konservativ və cərrahi müalicə.

103. Mədə xərçəngi. Mədənin xərçəngönü xəstəlikləri. Klinika və diaqnostikası,qastroskopiya və gastrobiopsiyanın rolu. Müalicəsi. Poliplərin endoskopik xaric edilməsi. Mədə xərçənginin epidemiologiyası. Etioloji faktorlar. Təsnifatı.Şişlərin böyüməsinin lokalizasiyası və təbiətinə görə xəstəliyin kliniki

əlamətləri. Ağırlaşma: qanaxma, stenoz, perforasiya. Diaqnostika və differensial diaqnostika. Radikal və palliativ əməliyyatlar üçün göstərişlər və əks göstərişlər. Əməliyyatönü hazırlıq və əməliyyatdan sonrakı müalicə prinsipləri.

104. Qeyri-epiteliyal mədə şişləri. Təsnifatı. Klinika və diaqnostikası. Cərrahi müalicə.

105. Əməliyyat olunmuş mədə xəstəlikləri. Təsnifatı. Sağalmamış və residiv xoralar, anastomozun peptiki xorası,gətirici ilgək sindromu və demping sindrom. Reflüks-gastrit və reflüks -ezofagit. Yaranma səbəbləri. Klinika və diaqnostika. Cərrahi əməliyyata göstərişlər, rekonstruktiv əməliyyat üsulları.

106. Həzm sisteminin divertikulları.Təsnifat, diaqnostika, ağırlaşmalar. Cərrahi müalicə. Mekkel divertikulu. Diaqnostika, müalicə.

107. Nazik bağırsağın şişləri. Təsnifatı, klinika, diaqnostika və müalicəsi.

108. Kron xəstəliyi. Anlayışın tərifi, klinika, diaqnostika və müalicəsi. Ağırlaşmalar, onların diaqnostikası və müalicəsi.

109. Bağırsaq fistulu.Təsnifatı,klinika, diaqnostika və müalicəsi.

110. Kəskin apendisit. Təsnifatı. Patoloji-anatomik formaları. Etiologiya, patogenezi. Klinika və diaqnostikası. Müalicəsi. Müxtəlif ağırlaşmaların klinikası; onların diaqnostikası və müalicəsi.

111. Xroniki appendisit. Təsnifatı. Klinika, diaqnostika, differensial diaqnostika. Cərrahi müalicəyə göstərişlər və əks-göstərişlər.

112. Soğulcanabənzər çıxıntının karsinoidi. Klinika və diaqnostikası, karsinoid sindromu. Müalicə prinsipləri.

113.Yoğun bağırsaq xəstəliklərinin təsnifatı. Yoğun bağırsaq xəstəlikləri olan xəstələrin müayinə üsulları.

114.Bağırsaqların inkişaf qüsurları. Diaqnostika və müalicəsi. Hirşsprung xəstəliyi.Etiologiya, patogenez. Klinika, diaqnostika, differensial diaqnostika.Cərrahi müalicə üsulunun seçilməsi.

115.Qeyri-spesifik xoralı kolit. Etiologiya. Klinika, diaqnostika, differensial diaqnostika. Konservativ və cərrahi müalicə üsulları.Ağırlaşmalar, onların diaqnostikası və müalicəsi.

116.Yoğun bağırsağın divertikulyozu. Klinika, diaqnostika, cərrahi müalicəyə göstərişlər. Əməliyyat növləri. Ağırlaşmalar. Klinika, diaqnostikası, müalicə.

